Beynəlxalq ictimaiyyət Azərbaycanın zəfərini yüksək qiymətləndirir

"Qardaş Azərbaycan Qarabağı qətiyyətli bir hərbi zəfərlə geri alandan sonra Türkiyə ilə Orta Asiyada yaşayan qardaşlarımız arasında birbaşa dəmir və avtomobil yolları ilə əlaqə qurulması üçün şanslar yaranıb. Cümhuriyyətimizin banisi qazi Mustafa Kamal Atatürkün Naxçıvanla sərhəd yaradılmasına verdiyi önəm və sərhəd qapısını açıq tutmaq üçün göstərdiyi səylər illər sonra öz səmərəsini verib".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Təkirdağ-Hayrabolu avtomagistralının Kandamış hissəsinin açılış mərasimindəki çıxışında deyib.

Azərbaycanın öz torpaqlarına qovuşmasının, eləcə də Türkiyənin yol infrastrukturuna böyük məbləğdə sərmayə yatırmasının əhəmiyyətindən danışan parlamentin sədri Mustafa Şentop bildirib: "Ölkə olaraq qovuşmaq anlayışının sevincini yaşayırıq. Tarixi İpək yolunu birlikdə canlandıracağıq. Orta Asiyada yaşayan qardaşlarımızla da iqtisadi, mədəni, siyasi və hərbi əlaqələrimiz genişlənəcək. Ölkəmizdə həyata keçirdiyimiz infrastruktur sərmayələrini və bu sahədəki təcrübəmizi Orta Asiyaya da daşıyacağıq".

❖ ❖ ❖

"France-24" kanalı işğaldan azad edilmiş Ağdam rayonu haqqında reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda münaqişəyə son qoyan razılaşmaya əsasən, dekabrın 1-də Laçın rayonunun Azərbaycana təhvil verilməli olduğu bildirilir. Qeyd edilir ki, bununla da Azərbaycan Dağlıq Qarabağın ətrafındakı 7 rayonun hamısını geri qaytarmış olacaq.

Kanalın xüsusi müxbirləri Lüdoviq dö Fuko, Katrin Norestrent və Hüseyn Əsədin Ağdamdan hazırladıqları reportajda deyilir: "Bu şəhər o qədər dağıdılıb ki, bəzən onu "Qafqazın Xirosması" adlandırırlar. 1980-ci illərin sonlarında 40 min əhalisi olan Ağdam bu gün "ruhlar şəhəri"dir. Bu gün Ağdamda hələ də qalan yeganə bina məsciddir. Bu şəhər 30 il əvvəl Birinci Qarabağ müharibəsi zamanı böyük strateji əhəmiyyət daşıyırdı. 1993-cü ildə bu şəhərin itirilməsi müharibənin dönüş nöqtəsi oldu. Buranın sakinləri köç etmək məcburiyyətində qaldı. Bu gün məcburi köçkünlər qayıdırlar və dağılmış binaları görürlər".

Reportajda Ağdam sakini Zülfü Qasımovun bu fikirlərinə də yer verilir: "Belə bir şəhəri bu günə salmaq olarmı? Bu evləri belə dağıtmaq olarmı? Siz bu evlərin keçmişini görsəydiniz bilərdiniz ki, ən müasir evlər, ən yaxşı tikilmiş evlər ancaq Ağdamda olub. Onlar bilirdilər ki, burada yaşamayacaqlar. Onların inamı yox idi ki, burada qalsınlar. Çünki qalmaqları mümkün deyildi. Ona görə də əllərinə düşən hər şeyi dağıdıblar".

Reportajda qeyd edilir ki, bərpa işlərindən əvvəl təhlükəsizliyi təmin etmək lazımdır. Azərbaycan tərəfindən azad edilmiş digər rayonlar kimi, Ağdam da mina ilə doludur. Hakimiyyət orqanları bu istiqamətdə işə başlayıblar.

ANAMA-nın əməliyyat qərargahının rəhbəri İdris İsmayılov deyir ki, 4500-ə yaxın piyada əleyhinə mina, 2000-ə yaxın tank əleyhinə mina, 750-yə yaxın isə müxtəlif növ bombalar aşkar edilərək zərərsizləşdirilib.

Reportajda həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərə vurulmuş ziyanı 10 milyardlarla dollar həcmində dəyərləndirdiyi və Ermənistan tərəfindən təzminat almaq üçün məhkəmələrə müraciət edəcəyi diqqətə çatdırılır.

❖ ❖ ❖

Türkiyənin "Anadolu" Agentliyi Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonu haqqında reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, "Qarabağın məşhur memarı Qarabağinin Füzulidəki məscidindən sadəcə minarə qalıb" sərlövhəli reportajda təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin əsl mahiyyəti, erməni vandalizminin iç üzü oxuculara çatdırılır.

Bildirilir ki, Ermənistanın təcavüzkar siyasətinin əsl mahiyyəti Füzulidəki real mənzərə ilə özünü təsdiq edir. Füzulinin işğal edilmiş bütün yerlərində soyqırımı həyata keçirilib. Evlər dağıdılıb, talan olunub, məscid və qəbiristanlıqlar, tarixi və mədəni abidələr məqsədli şəkildə məhv edilib. Qarabağın və Azərbaycan memarlığının görkəmli simalarından biri olan Kərbəlayi Səfixan Qarabağinin inşa etdirdiyi Hacı Əli Əkbər məscidi də şəhərin bir çox memarlıq abidəsi kimi ermənilər tərəfindən dağıdılıb. Onun yalnız dağılmış minarə və sütunları qalıb.

Reportajda qeyd edilir ki, indi Azərbaycan bu əraziləri özünə qaytarıb, öz bayrağını ucaldıb.

Reportajda Füzuli rayonu haqqında ətraflı məlumat verilib.

❖ ❖ ❖

Misirin "Cümhuriyyə" nəşri "Azərbaycan Prezidenti heç kimin islam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, jurnalist Mustafa Yasinin müəllifi olduğu məqalədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad edilmiş Ağdam məscidinin qarşısında etdiyi çıxışdan sitatlar yer alıb. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı məscidləri bağlayan, islamofobiya yayan dairələrin, yaxud müsəlman məbədlərinə kəsilmiş donuz başları atanların tolerantlıq nümunəsi olan Azərbaycana irad tuta bilməyəcəyini vurğulayıb.

Məqalədə Azərbaycanın dövlət başçısının dini-mənəvi dəyərlərə verdiyi əhəmiyyət diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezident İlham Əliyev bu kontekstdə deyib: "Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb".

O, əlavə edib ki, bir neçə il əvvəl Ağdam məscidində olan ATƏT-in Minsk qrupunun həmsədrləri ermənilərin bu vəhşiliyinə biganə qalıb, beynəlxalq ictimaiyyət qarşısında heç bir məsələ qaldırmayıblar. Eyni zamanda bu cür vəhşiliklər Qərb liderlərində də heç bir narahatlıq yaratmayıb.

❖ ❖ ❖



Fransanın beynəlxalq radiosu "RFİ" Azərbaycanın Ermənistan işğalından azad edilən Füzuli rayonundan reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda 1990-cı illərin əvvəllərində ermənilərin işğal etdiyi Dağlıq Qarabağ ətrafındakı 7 rayondan biri olan Füzulidə heç bir evin, kiçik ticarət mərkəzinin, hətta fermanın belə olmadığı diqqətə çatdırılır. Qeyd edilir ki, 30 ildir erməni işğalı altında qalan Füzuli boş səhranı xatırladır. Bildirilir ki, indi yalnız müharibə izlərinin göründüyü rayon bu il oktyabrın 17-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib.

Müəllif vurğulayır ki, Füzulidə Azərbaycan Ordusu tərəfindən məhv edilmiş erməni hərbi texnikası sovet dövrünə aiddir. Əvəzində isə Azərbaycanın son illərdə hərbi sahəyə kifayət qədər büdcə ayırıb və ordunu müasir texnika ilə təmin edib.

Eyni zamanda qeyd olunub ki, doğma evlərinə qayıtmaq istəyi ilə yaşayan Füzuli sakinləri bu yerlərin minalardan təmizlənməsi, eləcə də burada yaşayış infrastrukturunun yaradılması üçün bir neçə il gözləməli olacaqlar.

Reportajda həmçinin bildirilib ki, burada uzun müddət heç kim yaşamayıb və şəhər yalnız dağıntılardan ibarətdir.

❖ ❖ ❖

"Döyüş zonasından uzaqda yerləşən Bərdə bazarına kasetli bombalarla hücum edilmişdi. Bu, dəhşət idi, bomba heç bir hərbi obyektin olmadığı mülki zonaya atılmışdı. Gəncə şəhərinin mərkəzində yaşayış massivi də gecə vaxtı uzaqmənzilli "SCUD" raketi ilə hədəfə alınmışdı. Bütün bunlar müharibənin dəhşətli anlarından idi. Gördüyümüz səhnələr dəhşətli idi".

AZƏRTAC xəbər verir ki, bu barədə 44 günlük müharibə zamanı Azərbaycanda olmuş "Paris Match" jurnalının müxbiri Reji Lö Somye "Franceinfo" telekanalına müsahibəsində bildirib.

Fransız jurnalist bildirib ki, əslində, Dağlıq Qarabağda ermənilərin yaşadığı yer kiçik bir məkandır. Ancaq Azərbaycanda gördüyümüz müharibə dağıntıları daha dəhşətli idi. Cənub istiqamətində işğaldan azad edilən 4 rayonda Birinci Qarabağ müharibəsinin izləri hələ də qalmaqda idi. O vaxt bu rayonlarda erməni silahlı qüvvələri tərəfindən yüzlərlə ev dağıdılıb. Həmin rayonlarda uzun müddətdir - 1993-cü ildən bəri yaşayış yoxdur.

Jurnalist qeyd edib ki, bu müharibə dini xarakter daşımır. Bu, ərazi münaqişəsidir.

Çıxışı zamanı müxbir dəfələrlə Gəncədə yaşayış massivinin raket atəşinə tutulmasına qayıdaraq bunun dəhşətli olduğunu vurğulayıb. O, getdiyi rayonlarda qəbiristanlıqların dağıdılmasından, həmçinin Azərbaycanın dünyəvi dövlət olmasından da danışıb.

Müsahibəsində Reji Lö Somye Dağlıq Qarabağın Azərbaycan ərazisi olmasına dair BMT Təhlükəsizlik Şurasının qətnamələrindən də söz açıb.

❖ ❖ ❖

Özbəkistanın "qalampir.uz" portalında Kəlbəcərin işğaldan azad olunması ilə bağlı özbək dilində məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcərin işğaldan azad olunması ilə bağlı xalqa müraciətindən fikirlər yer alıb. Bildirilir ki, dövlətimizin başçısı öz müraciətində Kəlbəcər rayonunun işğal altına düşməsini böyük faciə adlandırıb. Prezident İlham Əliyev vurğulayıb ki, 1992-ci ilin mayında Şuşa və Laçın rayonlarının işğalından sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaradıb. Müraciətdə ermənilərin Kəlbəcərdən çıxarkən yaşadıqları evləri və meşələri yandırdıqları, ağacları kəsib özləri ilə apardıqları da qeyd edilib.

Məqalədə Prezident İlham Əliyevə istinadla bildirilib: "Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilib. Eyni zamanda Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir".

"ishonch.uz" portalında dərc olunan məqalədə isə Kəlbəcər rayonunun tarixi və mədəniyyət abidələri, təbiəti, flora və faunası, təbii sərvətləri, əhalisi, ərazisi haqqında məlumat verilir, rayonun inzibati ərazi vahidi kimi 1930-cu ildə yaradıldığı diqqətə çatdırılır.

Məqalədə qeyd edilir ki, Kəlbəcər qızıl, civə, mis, əlvan daşlar, həmçinin mərmər, sement xammalı, mineral sular və digər ehtiyatlarla zəngindir.

❖ ❖ ❖

Noyabrın 27-də İndoneziya mətbuatı Azərbaycanın rəsmi qurumlarının Fransa senatının Dağlıq Qarabağla bağlı qətnaməsinə münasibətini əks etdirən məlumatlara geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, İndoneziyanın nüfuzlu "Republika" qəzeti, "dunia.rmol.id", "international.sindonews.com" və "kompas.com" saytları Azərbaycan rəsmi qurumlarına istinadla Fransa Senatının qəbul etdiyi "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnaməsinin qərəzli və təxribat xarakterli olması barədə xəbərlər yayıblar.

"Republika" qəzetinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) bəyanatı əsasında yaydığı məlumatda deyilir: "Fransa senatında qəbul edilmiş "Dağlıq Qarabağ Respublikasının tanınması zərurəti" adlı qətnamə təklifi bir qrup qatı ermənipərəst senator tərəfindən irəli sürülüb".

Azərbaycan XİN-in bəyanatına əsasən, bildirilir ki, Fransada yaşayan ermənilər, ilk növbədə, Qarabağ münaqişəsindən seçki məqsədləri üçün istifadə etməyə çalışırlar. Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi yalnız təxribat kimi qiymətləndirilə bilər.

Bəyanatda həmçinin bildirilir ki, Senatın qəbul etdiyi qətnamənin hüquqi qüvvəsi yoxdur. Lakin sənədin siyasi məna kəsb etdiyini nəzərə alaraq, vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliyini ciddi şübhə altına alır.

Xəbərdə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə də məlumat verilir. Qeyd edilir ki, ötən əsrin 90-cı illərində keçmiş Sovet İttifaqının dağılmasından istifadə edən Ermənistan xarici havadarlarının dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf rayonları işğal edib.

Tərəflər arasında son qarşıdurma Ermənistanın mülki əhaliyə qarşı təxribatından sonra sentyabrın 27-də başlayıb. Altı həftə davam edən müharibə Rusiyanın vasitəçiliyi ilə dayandırılıb və Azərbaycan işğal altında olan torpaqlarını azad edib.

❖ ❖ ❖

"Associated Press" Agentliyi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı Gəncə şəhərinə etdiyi raket hücumunun ağır nəticələri ilə bağlı reportaj yayıb.

AZƏRTAC xəbər verir ki, reportajda raket hücumu nəticəsində yaranmış dağıntıların görüntüləri, yaxınlarını itirmiş insanların fikirləri yer alıb.

Bildirilir ki, Gəncə şəhərinin Muxtar Hacıyev küçəsində binalar dağılmış, insanlar, avtomobillər dağıntılar altında qalmışdır. Həlak olmuş mülki şəxslərin, o cümlədən uşaqların xatirəsini yad etmək üçün buraya gələnlər əllərində güllər, oyuncaqlar gətirirlər.

Şairə Quliyeva adlı sakin qardaşı oğlu 13 yaşlı Artur Mayakovun öldüyünü deyərək ağlayır: "O, çox istedadlı, bacarıqlı, həyat eşqi ilə dolu bir uşaq idi. Bu uşaqların günahı nə idi? Bu qədər insan öldü. Təkcə bizim küçəmizdən 14 nəfər həlak oldu. Bu insanların günahı nə idi? Niyə dünya ictimaiyyəti buna göz yumur?"

Digər sakin Təzəgül Şahnəzərova hücum nəticəsində oğlunu, gəlinini və nəvəsini itirdiyini deyir: "Mən artıq itirdiyimi itirmişəm. Qırxbeşillik əməyimizlə tikdiyimiz, yığdığımız hər şeyi itirdik. Lakin bu, mənim gözümə görünmür. Məni övladlarımın həlak olması yandırır. Mən onları istəyirəm, lakin onlar yoxdur. Bir mən, bir də körpə nəvəm sağ qalmışıq".

Reportajda bildirilir ki, oktyabrın 17-də gecə Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə edilən raket hücumu nəticəsində çoxlu sayda insan həlak olub və yaralanıb. Artur Mayakov həmin hücum nəticəsində ağır yaralanıb, lakin sonradan müalicə aldığı xəstəxanada ölüb. O, 2007-ci ildə Rusiyada anadan olmuşdu.

Azərbaycan rəsmiləri Gəncəyə "SCUD" raketi ilə endirilən zərbə nəticəsində yaşayış binalarının dağıldığı və ya ciddi ziyan gördüyünü bildirirlər. Dağıntıların altından cəsədlərin və yaralıların çıxarılması saatlar çəkib. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Gəncəyə edilən raket hücumunu müharibə cinayəti adlandırıb və buna görə məsuliyyəti Ermənistan rəhbərliyinin daşığını bildirib.

Reportajda Ermənistan-Azərbaycan münaqişəsi barədə məlumat verilir. Bildirilir ki, sentyabrın sonlarında alovlanan münaqişə iki həftə əvvəl başa çatıb. Bu hadisə Bakıda böyük qələbə kimi qeyd olundu.

❖ ❖ ❖

Ukrayna mətbuatında Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsinin qəbulu ilə əlaqədar Azərbaycanın etirazına dair məqalələr dərc edilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Ukrinform, "RBK-Ukrayna", "İnterfax-Ukrayna" informasiya agentlikləri, "Gordon", "Obozrevatel" və digər informasiya portallarında dərc olunan məqalələrdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Fransa Senatında qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə layihəsinin qəbulunə münasibətinə, Milli Məclisdə bununla bağlı müzakirə olunan məsələlərə diqqət çəkilib.

Bundan başqa, yazılarda Milli Məclisdə Fransa Senatının qərəzli qətnaməsinə etiraz bəyanatının qəbul olunması, Fransanın Minsk qrupunun həmsədrliyindən uzaqlaşdırılması kimi fikirlər də yer alıb. Azərbaycan Xarici İşlər Nazirliyinin Fransaya etirazı da yayılan xəbərlər sırasındadır.

❖ ❖ ❖

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Fransa Senatının Dağlıq Qarabağla əlaqədar qəbul etdiyi qərəzli qətnamə barədə Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, agentliyin bildirdiyinə görə, noyabrın 26-da qəbul edilən bəyanatda Milli Məclis Fransa senatı tərəfindən "Dağlıq Qarabağ respublikası" adlı qondara qurumun tanınması zərurətinin irəli sürülməsini kəskin tənqid edib.

Bəyanatdan gətirilmiş sitatda deyilir: "Fransa senatının bu addımı Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə qlobal strategiyası, o cümlədən Avropa İttifaqı Şurasının dövlətlərin ərazi bütövlüyü barədə 2016-cı ildən bəri ardıcıl qəbul etdiyi sənədlər çərçivəsində Fransa Respublikasının üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmır".

Sənəddə vurğulanır ki, dünyanın heç bir ölkəsi qondarma "respublika"nı tanımayıb və belə bir qətnamənin qəbulu ciddi problemlərə səbəb ola bilər. Qətnamənin müddəalarının həyata keçirilməsi Avropa İttifaqına və onun "Şərq Tərəfdaşlığı" proqramına sarsıdıcı zərbə vurmaq potensialı daşıyır.

Məlumatda Azərbaycan parlamenti adından qeyd edilir ki, təqribən 30 ilə yaxın bir dövrdə davam edən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməməsinin səbəbləri sırasında beynəlxalq vasitəçi rolunu oynamış dövlətlərin, xüsusən Fransanın təcavüzkarı öz adı ilə çağırmaması, işğalçı ilə işğala məruz qalan arasında fərq qoymaması olub.

Yazıda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Fransa, Rusiya və ABŞ-ın həmsədrliyi ilə 1992-ci ildə münaqişənin həlli məqsədilə yaradılmış Minsk qrupu barədə də məlumat verilir. Bildirilir ki, 28 ildə keçirilmiş çoxsaylı görüşlər və aparılmış müzakirələr heç bir nəticə verməyib.

Milli Məclisin qəbul etdiyi bəyanata əsasən, qeyd edilir ki, Rusiyanın vasitəçiliyi ilə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabrın 10-da imzaladığı sənəd Ermənistan-Azərbaycan münaqişəsinə və Azərbaycan torpaqlarının işğalına son qoymaqla yanaşı, həmçinin Cənubi Qafqaz bölgəsinin gələcək inkişafı üçün yol açıb.

Bəyanata istinadla bildirilir ki, sülh razılaşması beynəlxalq hüququn normalarının və prinsiplərinin üstünlüyünü bərqərar edib.

❖ ❖ ❖

Ərəb KİV-ində ermənilərin Azərbaycanın Kəlbəcər rayonunda evləri və meşələri yandırması barədə xəbərlər dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Əl-Ərəbiyyə" telekanalının saytında yayılmış materialda noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış bəyanatdan sonra azad edilən ərazilərin dağıdıldığı, Kəlbəcərdə 30 ilə yaxın müddətdə yaşamış ermənilərin tərk etdikləri evləri və meşələri yandırması qeyd olunur. Vurğulanır ki, Ağdam rayonunda işğalçılar tərəfindən xaraba qoyulmuş məscidi ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyev bütün mülki obyektlərin və infrastrukturun tezliklə bərpa ediləcəyini bildirib.

"Arabnews" qəzetində dərc edilmiş məqalədə də Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması, bundan əvvəl azərbaycanlıların humanizm prinsipindən çıxış edərək daha 10 gün möhlət verdikləri ermənilərin evləri və meşələri yandırdıqları bildirilir. Diqqətə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev xalqa son müraciətində Ermənistanın terrorçu dövlət olduğunu bəyan edib. Əlavə edib ki, mülki insanlara qarşı soyqırımı, tarixi abidələrin məhv edilməsi, meşələrin yandırılması və ağacların kəsilməsi, su kəmərlərinin və digər infrastrukturun sıradan çıxarılması buna əyani sübutdur.

Misirin "Əl-Vəsilə", "Nile1", "Elghad" informasiya portalları və "Asiaelyoum" və İordaniyanın "Nayrouz" informasiya agentlikləri də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Kəlbəcərin işğaldan azad edilməsi münasibətilə xalqa müraciəti barədə xəbərlər yayıblar.

❖ ❖ ❖

İngiltərədəki azərbaycanlı icması Azərbaycanın ərazi bütövlüyünün tanınması və işğalçını dəstəkləyən addımların atılmaması ilə bağlı Derbi Şəhər Şurasına müraciət edib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Derbi Şəhər Şurasının baş icraçı direktoru Paul Simpsona ünvanlanan müraciətdə Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınması ilə bağlı təklifin yalan və ermənipərəst təbliğatın nəticəsi olduğu qeyd edilib.

Bu addıma kəskin etirazını bildirən azərbaycanlı icması xəbərdarlıq edib ki, Azərbaycanın dünya birliyi, o cümlədən İngiltərə tərəfindən tanınan ərazi bütövlüyünə zidd olan belə bir qərarın qəbulu beynəlxalq hüquq və normalara qarşı olmaqla yanaşı, həm də Azərbaycan-İngiltərə əlaqələrinə zərbə vura bilər.

Vurğulanıb ki, qəbul olunmuş qərar Birləşmiş Krallıqla Azərbaycan arasında mövcud olan ikitərəfli əlaqələrə və Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünə göstərilmiş etimada hörmətsizlik kimi dəyərləndirilir. İnanırıq ki, qəbul olunmuş qərar tezliklə Şura tərəfindən ləğv ediləcək.

Qeyd edək ki, etiraz məktubu Britaniya Azərbaycanlıları İcması, Britaniya Azərbaycanlıları Assosiasiyası, Beynəlxalq Azərbaycan İcması təşkilatları və İngiltərədə yaşayan azərbaycanlılar tərəfindən ünvanlanıb.

❖ ❖ ❖

Özbəkistanın "qalampir.uz", "kun.uz",və "azon.uz" portalları Fransa Senatının "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə təklifi"nin səsə qoyulması və qəbul edilməsi ilə bağlı materiallar yayıb.

AZƏRTAC xəbər verir ki, "qalampir.uz" portalında yayılan məlumatda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev məsələyə münasibəti əksini tapıb. O deyib: "Bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur".

Portallar bildirir ki, Fransa Xarici İşlər Nazirliyi yanında Dövlət katibi Jan-Batist Lömuan Fransa hökumətinin bu mövzuda mövqeyini xatırladıb. O deyib ki, Fransa qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır.

Yazılarda Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir, Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanat qəbul etdikləri də vurğulanır.